# PwC Azerbaijan Times

# Legislation update



Stay on top of major legal developments with PwC Azerbaijan Times alerts focusing on key insights and business implications

## English

### Restriction on foreign payments by branch of a foreign company

In its letter circulated earlier this year to all commercial banks, the Central Bank provided its formal interpretation related to transfer of foreign currency funds by branches of foreign companies. In particular, the Central Bank confirmed the restriction on transfer of funds to a foreign legal entity by the Azerbaijani branch of the same legal entity whenever such transfer is related to payments for supplies by the foreign entity to its Azerbaijani branch. For the sake of clarity, no restriction is imposed for repatriation of profits by the branch as long as the Azerbaijani tax liabilities of the branch are discharged.

The Central Bank has reasoned its restriction by reference to respective provisions of the Azerbaijani legislation and coming to the conclusion that no commercial contract may be entered into between a company and its branch as the latter is not a legal entity and is considered a division of the former.

PwC comment: Whenever any exchange of funds or supplies is expected between a foreign entity and its Azerbaijani branch, it is recommended to establish a viable arrangement between the two to avoid application of the foreign exchange restriction in question. Various options may be available depending on the nature of the underlying transaction with a counterparty of the foreign legal entity and/or its branch.

### New regulations to open advantageous opportunities for "clean" electricity production in Azerbaijan

The new Law on "Use of renewable energy sources in electricity production" enacted on May 31, 2021 establishes legal, economical and organizational basis for use of clean energy for electricity production, as well as develops governmental support measures for encouraging such electricity producers.

## Azerbaijan

### Xarici şirkətin filialı tərəfindən xarici ödənişlərin məhdudlaşdırılması

Cari ilin əvvəlində Azərbaycan Respublikasının Mərkəzi Bankı bütün kommersiya banklarına göndərdiyi tapşırıq məktubu ilə xarici şirkətlərin filialları tərəfindən xarici valyuta vəsaitlərinin köçürülməsi ilə əlaqədar rəsmi şərhini verdi. Belə ki, Mərkəzi Bank xarici hüquqi şəxsin Azərbaycandakı filialı tərəfindən filialı olduğu xarici hüquqi şəxsə müqavilə üzrə yaranan öhdəliklər üzrə ödənişlərin aparılması ilə bağlı məhdudiyyət tətbiq etdi. Qeyd edək ki, yeni tapşırığa əsasən xarici şirkətin filialının Azərbaycanda vergi öhdəliklərinin yerinə yetirilməsi şərtilə mənfəətinin repatriasiyası ilə bağlı hər hansı məhdudiyyət tətbiq edilməmişdir.

Mərkəzi Bank öz şərhini filialın ayrıca hüquqi şəxs olmaması, onun filialı olduğu xarici hüquqi şəxslə müqavilə münasibətlərində ola bilməməsi ilə əsaslandırmışdır.

PwC şərhi: Xarici təşkilatla onun Azərbaycandakı filialı arasında hər hansı bir vəsait mübadiləsi nəzərdə tutulduqda, sözügedən valyuta məhdudiyyətinin təsirinə məruz qalmamaq üçün həmin şəxslər arasında qanuna uyğun müqavilə münasibətlərinin qurulması tövsiyə olunur. Xarici hüquqi şəxsin və ya onun filialının müqavilə tərəfi ilə arasında olan münasibətlərin xüsusiyyətlərindən asılı olaraq müxtəlif alternativlərdən istifadə oluna bilər.

### Yeni qanun Azərbaycanda "təmiz" elektrik enerjisi istehsalı üçün sərfəli imkanlar yaradacaq

31 may 2021-ci ildə qəbul edilmiş yeni "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Qanun elektrik enerjisinin istehsalı üçün təmiz enerjidən istifadənin hüquqi, iqtisadi və təşkilati əsaslarını, habelə bu cür elektrik enerjisinin istehsalçılarının stimullaşdırılması məqsədilə dövlət dəstəyi tədbirlərini müəyyən edir.

## Area of application

The new regulations cover a wide area of application, particularly the fields of production, accumulation, transmission, supply and consumption of the electricity generated from constantly existing and renovating sources, such as rivers and sea water flows, wind, solar, geothermal, biomass energy etc.

Considering the abundance of renewable energy resources in Azerbaijan, as well as the recent liberation of large territories rich in hydropower resources from occupation, the industry promises a great interest for investors. According to the Law, an atlas of renewable energy sources to be created containing comprehensive information on land plots and waters that can be used from the perspective of renewable energy.

## Eligibility requirements for producers

The Law does not set forth any special requirements for persons wishing to be engaged in the production of electricity, as long as they hold a permission issued in compliance with the respective licensing regulations.

## Governmental support

The government adopts various support measures for the producers in the industry.

Among others, the Law establishes the notions of "guaranteed tariff" and "guaranteed purchaser", where the latter undertakes by contract entered into between them and a producer to purchase the generated electricity for the prices fixed by the contractual terms. The measure is aimed to protect the producers from the risks associated with the oversupply, as well as other possible manipulations from the side of the natural monopsonist.

In addition, the Law also introduces positive changes to the provisions on the legal regime of lands that will be used for the construction of power plants on them. In particular, whenever a permit is issued to use a specific area for a given purpose, the government exempts producers from changing the categories of those lands, which is considered a long and painful process for land users in other industries.

## International investments

The regulations provide no legal limitations for foreign investors in the industry. To the contrary, the Law declares the creation of an attractive environment for international investments as one of its fundamental principles thereof. As such, foreign entities may lease (not necessary to own) the lands on the same rights as the local entities are entitled. Likewise, foreign entities are expected to get a permission (license) for electricity production, which is also issued on the same rights, both to the foreign and local entities.

# Mediation in Azerbaijan: what do you need to know

On 29 March 2019 the President of the Republic of Azerbaijan enacted the "Mediation" law (the "Mediation Law"). The Mediation Law introduced the mediation as an alternative dispute resolution from 1 July 2021.

## What is the mediation?

Mediation is a form of alternative dispute resolution that is defined by the Mediation Law as "a process defined by the [Mediation] Law for a dispute resolution based on a mutual consent between parties with assistance of a mediator".
Mediation, unlike litigation, is not adversarial in nature and places an emphasis on cooperation and the finding of an amicable solution. As

## Tətbiq sahəsi

Yeni qanun mütəmadi yaranan və bərpa olunan enerji mənbələrindən, o cümlədən çay və dəniz suyu axını, külək, günəş enerjisi, geotermal enerji, biokütlə enerjisi, daimi və bərpa olunan mənbələrdən istehsal olunan elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, təchizatı və istehlakı daxil olmaqla geniş tətbiq sahələrini əhatə edir.

Azərbaycanda bərpa olunan enerji mənbələrinin bolluğunu, xüsusilə də hidroenerji ehtiyatları ilə zəngin olan böyük ərazilərin işğaldan azad edilməsini nəzərə alaraq, həmin sənaye investorlar üçün böyük fürsətlər vəd edir. Qanuna görə, bərpa olunan enerji baxımından istifadə üçün yararlı torpaq sahələri və su obyektləri haqqında dolğun məlumat əks etdirən bərpa olunan enerji mənbələrinin potensialı atlası yaradılacaqdır.

## İstehsalçılara dair tələblər

Elektrik enerjisi istehsalı ilə məşğul olmaq istəyən şəxslər müvafiq lisenziyalaşdırma tələblərinə uyğun verilmiş icazəyə malik olması şərti nəzərə alınmaqla, yeni Qanun həmin istehlakçılar barəsində hər hansı xüsusi tələblər müəyyən etmir.

## Dövlət dəstəyi tədbirləri

Hökümət elektrik enerjisi istehsalçıları üçün müxtəlif dəstək tədbirlərini təmin edir.

Dəstək tədbirlərindən biri kimi, Qanun "zəmanətli tarif" və "zəmanətli alıcı" anlayışlarını müəyyən edir. Bununla, istehsalçı ilə bağlanmış müqavilə əsasında, zəmanətli alıcı istehsal olunan elektrik enerjisini müqavilə şərtləri ilə müəyyən edilmiş zəmanətli qiymətlərlə satın alınmasını öz öhdəsinə götürür. Bu tədbir elektrik enerjisinin istehsalçılarını həddindən artıq təkliflərlə əlaqəli risklərdən və təbii inhisarçılar tərəfindən digər mümkün manipulyasiyalardan qorumaq məqsədi daşıyır.

Bundan əlavə, Qanun, üzərində elektrik stansiyalarının inşası üçün istifadə ediləcək torpaqların hüquqi rejimi ilə bağlı müddəalara da müsbət dəyişikliklər gətirir. Xüsusən, müəyyən bir ərazinin müəyyən məqsədlər üçün istifadəsinə icazə verilərkən, hökumət istehsalçıları bu sahələrin kateqoriyalarını dəyişdirməkdən azad edir, halbuki bu digər sənaye sahələrində torpaq istifadəçiləri üçün uzun və ağrılı bir proses hesab olunur.

## Xarici investisiyalar

Qanun sözügedən sənayedə xarici investorlar qarşısında heç bir hüquqi məhdudiyyət qoymur. Əksinə, beynəlxalq investisiyalar üçün cəlbedici bir mühitin yaradılması Qanunun əsas prinsiplərindən biri kimi müəyyən edilmişdir. Belə ki, xarici təşkilatlar yerli təşkilatlara verilmiş eyni hüquqlar əsasında elektrik enerjisinin istehsalı üçün torpaqları icarəyə götürə (sahiblik məcburi şərt deyil) bilərlər. Eyni qaydada, xarici təşkilatlar elektrik enerjisi istehsalı üçün həm xarici, həm də yerli təşkilatlara eyni hüquqlarla verilən icazə (lisenziya) almalıdır.

# Azərbaycanda mediasiya: nəyi bilmək lazımdır?

29 Mart 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Mediasiya haqqında" qanunu ("Mediasiya Qanunu") təsdiq edilmişdir. Mediasiya Qanununa əsasən 1 iyul 2021-ci ildən etibarən mediasiya alternativ mübahisə həlli üsulu kimi təqdim edilir.

## Mediasiya nədir?

Mediasiya alternativ mübahisə həlli üsuludur və Mediasiya Qanunu ilə "mediatorun vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı proses" kimi müəyyən edilir.
Məhkəmə prosesindən fərqli olaraq, mediasiya çəkişmə xarakteri daşımır, mübahisələrdə əməkdaşlığa və barışığa önəm verir. Bu baxımdan mediasiya daha çox barışıq və ya danışıqlara bənzəyir.

such, it is more akin to reconciliation or negotiations. The mediator is involved in mediation proceedings as a neutral third party. A resolution of the dispute that the parties reach as a result of the mediation is based on the settlement that the parties, with the help of the mediator, would agree to.

**What disputes the mediation MUST be attempted on?**

The Mediation Law defines disputes where disputing parties, before raising action in courts, are required to attempt resolution through mediation. These are:
1. commercial disputes including those involving foreign elements;
2. family disputes and
3. employment disputes.

Paragraphs 2 and 3 above are more or less self-explanatory.

As to paragraph 1, the Civil Procedural Code of the Republic of Azerbaijan defines a "commercial dispute" as disputes arising from implementation of the entrepreneurial activities. Therefore, it appears that the legislator's intent was to cover as wide area as possible and include any dispute arising from commercial or business contracts.

It may be also inferred from the reference to "foreign elements" that not only the Azerbaijan-based businesses but also foreign companies should attempt resolution of commercial disputes related to Azerbaijan through mediation. In our view however, the latter option will only be achievable where the Azerbaijani law – mandatorily or contractually – should apply to the disputes' resolution proceeding.

**What disputes the mediation CAN be attempted on?**

Apart from the disputes where the disputing parties are obliged to attempt the mediation before going to courts, the Mediation Law envisages some other disputes where parties may attempt to reach an amicable resolution through mediation. For doing so, the disputing parties will first need to enter into a mediation agreement. This is different from the commercial, family and employment disputes referred to above, where no agreement on mediation is necessary to start the mediation process. The disputes in question are:

1. civil disputes; and
2. administrative disputes.

In the absence of any guidance in the Mediation Law, it may be inferred that civil disputes would include any other, i.e. non-commercial, employment or family disputes. Perhaps, the most typical example of a civil dispute would be a tort.

As to the administrative disputes, these should include any disputes that may arise between private persons and/or businesses from one side and the state executive authorities from the other. This novice appears very promising and provides for opportunities to settle disputes in a legal manner with the state authorities without involving courts.

**How does the mediation proceed?**

Any disputing party may initiate the mediation by sending of a formal proposal to conduct mediation. The proposal to mediate can be sent at any time before or even during the court proceedings and must contain the following information:

- names and requisites of disputing parties;
- description of the dispute;
- mediation costs;
- reference to confidentiality obligations and
-other information relevant and necessary for mediation.

The mediation proposal should be sent no less than 5 days prior to a proposed date of the mediation. If the receiving disputing party rejects or does not respond to the proposal to mediate, the mediation process is considered terminated.

Where the receiving disputing party agrees to commence the mediation,

Mediator (vasitəçi) mediasiya prosesində bitərəf üçüncü şəxs kimi qatılır. Tərəflərin mediasiya nəticəsində əldə etdikləri mübahisənin həlli, tərəflərin mediatorun köməyi ilə razılaşacağı barışıq sazişinə əsaslanır.

**Mediasiya hansı mübahisələrə tətbiq EDİLMƏLİDİR?**

Mediasiya Qanunu məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyalarında tərəflərin iştirakı tələb edilən mübahisələrin aşağıdakı növlərini müəyyən edir:
1. kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla)
2. ailə mübahisələri və
3. əmək mübahisələri.

Yuxarıdakı ikinci və üçüncü bəndlər az-çox özünü izah edir.

Birinci bəndə gəldikdə isə, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi "kommersiya mübahisələrini" sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi nəticəsində yaranan mübahisələr kimi müəyyən edir. Belə görünür ki, qanunvericinin niyyəti mümkün olduğu qədər geniş bir sahəni əhatə etmək və kommersiya və ya təsərrüfat müqavilələrindən irəli gələn hər hansı mübahisəni bu anlayışa daxil etmək idi.

"Xarici elementli mübahisələr də daxil olmaqla" ifadəsini tövsif etdikdə, mediasiyanın həmçinin xarici şəxslərin iştirak etdiyi mübahisələrə də şamil olması qənaətinə gəlmək olar. Lakin, fikrimizcə, qeyd olunan bu hal yalnız mübahisələrin həlli proseduruna məcburi halda və ya müqavilə üzrə Azərbaycan qanunvericiliyi tətbiq edildikdə mümkündür.

**Mediasiya tətbiq EDİLƏ BİLƏN digər mübahisələr:**

Məhkəməyə müraciət etməmişdən əvvəl mediasiyada iştirak məcburi olan hallardan başqa, Qanun mediasiya yolu ilə barışıq əldə etmək məqsədilə həmçinin digər mübahisə növlərini də müəyyən edir. Bu mübahisələrə aşağıdakılar daxildir:

1. mülki mübahisələr və
2. inzibati mübahisələr.

Bu mübahisələrin baxılması üçün mübahisə tərəfləri mediasiya prosesinin tətbiqi barədə müqavilə bağlamalıdır. Bununla belə, sözügedən bu mübahisələr, mediasiya prosesinə başlamaq üçün öncədən mediasiya prosesinin tətbiqi barədə müqavilə tələb olunmayan yuxarıda qeyd olunan kommersiya, ailə və əmək mübahisələrindən fərqlənirlər.

Mediasiya Qanununda "mülki mübahisələr" anlayışı verilmədiyindən, mülki mübahisələrə digər, yəni qeyri-kommersiya, əmək və ailə mübahisələri daxil olduğunu güman etmək olar. Fikrimizcə, mülki mübahisələrinin ən tipik nümunəsi kimi deliktlər üzrə mübahisələri qeyd etmək olar.

İnzibati mübahisələrə gəldikdə isə, bir tərəfdən fiziki və ya hüquqi şəxslər, digər tərəfdən isə inzibati orqanlar arasında yarana biləcək istənilən mübahisələri aid etmək olar. Bu novasiya çox perspektivli görünür və məhkəmələri cəlb etmədən dövlət orqanları ilə yaranan mübahisələri sadələşdirilmiş qaydada həll etmək imkanlarını təmin edir.

**Mediasiya necə həyata keçirilir?**

Mediasiya prosesinin başlanması üçün tərəflərdən biri digər tərəfə mediasiya prosesinin tətbiqi barədə yazılı formada təklif göndərir. Qeyd edilən təklif məhkəmə prosesindən əvvəl və ya məhkəmə prosesi davam edərkən istənilən vaxt verilə bilər. Mediasiya təklifində aşağıdakı məlumatlar əks olunmalıdır:

-tərəflərin adları və rekvizitləri
-mübahisə predmetinin təsviri

the mediation process cannot exceed 30 days, unless the disputing parties agree to extend the mediation procedure for an additional period of up to 30 days.

Either party or both parties may withdraw from mediation at any time during the mediation process. In this case, the mediator would issue a respective reference that should be presented to the court if the dispute proceeds to formal court hearings.

**How the mediated settlement is enforced?**

If the disputing parties reach an agreement during the mediation process, they would enter into a settlement agreement. The settlement agreement should not be unlawful and becomes binding and enforceable from the date of signing, unless otherwise agreed between the disputing parties. Any settlement reached must be delivered within 10 days unless otherwise agreed between the disputing parties.

If either party dishonours the settlement agreement, the respective disputing party may apply for the enforcement to court. The court will confirm the settlement agreement unless it contradicts the law.

**Conclusion**

Introduction of mediation as an alternative dispute resolution method is designated to assist disputing parties to reach an amicable solution in a speedy manner. It also allows the parties to avoid animosity and, in certain cases, maintain relations.

The involvement of the state court system is minimum; however, given that any settlement reached must not contradict the law, the involvement of lawyers and experts in areas causing respective disputes (construction, employment, property rights etc.) to assist the parties to reach an amicable and lawful settlement will still be necessary in many cases.

## Definitions to Employment were introduced

Until the recent amendments to the Labor Code introduced in April 2021, there was no clear definition of **employment relations** in Azerbaijani legislation. In pursuit of a much simpler formalization procedure, as well as in order to avoid respective tax and labor law requirements, employers used to involve employees on the basis of a civil law contract, i.e. a services contract, even if the nature of relationship was purely employment. As a result, such employees were deprived of the basic rights prescribed by the Azerbaijani labor legislation.

In the frames of the recent labor law reforms much more clarity was brought to the concept of employment relations. Now there is a clear definition of "employment relations" which differs them from civil law relations between the contractor and client. In short, the employment relations appear when an employee performs his job duties personally on his workplace and receives a respective compensation for his services. The employee follows the internal discipline rules. In its turn, within the framework of employment relations the employer provides necessary work conditions and occupational safety and health of the employee. In general, employment relations are based on the principles of the Labor Code.

Moreover, in addition to the clear definition of employment relations, the amendment defined the cases when conclusion of an employment agreement is compulsory and provision of services by an individual on the basis of a services contract is not allowed. It is worth noting that if at least one of them is identified, a written employment agreement shall be concluded immediately.

- mediasiya prosesi ilə əlaqədar xərclər
-mediasiyanın keçirilməsinin məxfiliyi haqqında tərəflərin öhdəlikləri və
-mediasiya prosesinin keçirilməsi üçün lazım olan digər məlumat.

Mediasiya prosesinə dair təklif digər tərəfə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir. Göndərilmiş təklifə cavab verilmədikdə və ya təklif rədd edildikdə mediasiya prosesinə avtomatik xitam verilir.
Mediasiya prosesinə dair təklif qəbul edildiyi halda, prosesin ümumi müddəti 30 günü ötməməlidir. Tərəflərin razılığı ilə mediasiya prosesinin müddəti daha 30 gün müddətinə qədər uzadıla bilər. Mediasiyanın hər iki tərəfi öz mülahizəsinə əsasən mediasiyanın istənilən mərhələsində prosesdən imtina etmək hüququna malikdirlər. Bu halda, mübahisəyə məhkəmə tərəfindən baxıldıqda, mediator müvafiq protokolu tərtib etməli və məhkəməyə təqdim etməlidir.

**Barışıq sazişinin icrası necə təmin olunur?**

Mübahisə edən tərəflər mediasiya prosesi zamanı razılığa gəldikdə, barışıq sazişi imzalayır. Tərəflər arasında digər şərtlər nəzərdə tutulmadığı təqdirdə, barışıq sazişi imzalandığı gündən qüvvəyə minir və tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə, istənilən barışıq sazişi imzalandığı gündən etibarən 10 gün müddətində icra olunmalıdır. Əgər tərəflərdən biri barışıq sazişinin icrasından imtina edirsə, digər tərəf barışıq sazişinin məcburi icrası üçün məhkəməyə müraciət edə bilər. Barışıq sazişi qanuna zidd olmadıqda, məhkəmə tərəfindən təsdiq edilir.

**Yekun**

Mediasiyanın tətbiqi mübahisələrin həllində alternativ üsul kimi mübahisənin tez bir zamanda sülh yolu ilə həllinə kömək etmək məqsədi daşıyır. Bu həmçinin tərəflərə düşmənçilikdən qaçmağa və bəzi hallarda münasibətləri qorumağa imkan verir.

Məhkəmə sisteminin iştirakı minimuma endirilir. Lakin əldə edilən hər hansı bir razılaşmanın qanunla ziddiyyət təşkil etməməsinin vacibliyini nəzərə alaraq, məsələnin barışıqlı və qanuni həllinə kömək etmək məqsədi ilə bir çox hallarda müvafiq mübahisələr (tikinti, məşğulluq, mülkiyyət hüquqları və s.) sahələrində hüquqşünasların və mütəxəssislərin cəlb edilməsi zəruri olacaqdır.

## Əmək münasibətləri anlayışına aydınlıq gətirildi

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 2021-ci ilin aprel ayında müvafiq dəyişikliklər edilənədək ölkə qanunvericiliyində bilavasitə "**əmək münasibətləri**" anlayışı mövcud deyil idi. Rəsmiləşdirmə prosedurlarını sadələşdirmək, həmçinin vergi və əmək qanunvericiliyinin tələblərindən yayınmaq məqsədilə işəgötürənlər işçiləri münasibətlər birbaşa əmək münasibətləri xarakteri daşıdığı halda belə, mülki hüquqi müqavilə (yəni, xidmət müqaviləsi) əsasında cəlb etməyə üstünlük verirdilər. Nəticə etibarı ilə, işçilər Azərbaycan əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş əsas hüquqlarından məhrum olurdular.

Son zamanlar əmək hüququ sahəsində keçirilən islahatlar çərçivəsində əmək münasibətləri konsepsiyasına aydınlıq gətirilmişdir. Belə ki, hazırda qanunvericiliklə sifarişçi və icraçı arasında yaranan mülki hüquqi münasibətlərdən fərqləndirən "əmək münasibətləri"-nin dəqiq anlayışı verilmişdir. Digər sözlə, əmək münasibətləri işçi tərəfindən əmək funksiyalarının şəxsən tərəflər arasında razılaşdırılmış iş yerində yerinə yetirdikdə və bunun əvəzində müvafiq əmək haqqı aldığında yaranır. Əmək münasibətləri çərçivəsində işçi daxili intizam qaydalarına riayət etməlidir. İşəgötürən isə əmək münasibətləri mövcud olduqda işçini əmək şəraiti və əməyin mühafizəsi ilə təmin etməlidir. Bir qayda olaraq, əmək münasibətləri Əmək Məcəlləsinin prinsiplərinə əsaslanmalıdır.

Qeyd olunan bu dəyişikliklər əmək münasibətləri anlayışının dəqiq açıqlama verilməsindən əlavə, tərəflər arasında qanunla yaranan münasibətlərin əmək münasibətləri hesab edildiyi və onların mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinə yol verilmədiyi hallarını da müəyyən edir. Xüsusilə qeyd edilməlidir ki, nəzərdə tutulan hallardan biri aşkar edildiyi gündən etibarən işçi ilə işəgötürən arasında yazılı əmək müqaviləsi bağlanmalıdır.

# Contact us



**Elchin Mammadov**
Director, Legal Services
elchin.mammadov@pwc.com



**Leyla Sadikhova**
Manager, Legal Services
leyla.sadikhova@pwc.com

For any questions related to the information included herein, please contact



**Aysel Suleymanova**
Marketing & Communications Leader
aysel.suleymanova@pwc.com

© 2021 PwC. All rights reserved. PwC refers to the PwC network and/or one or more of its member firms, each of which is a separate legal entity. Please see www.pwc.com/structure.